AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

*Əlyazması hüququnda*

**BƏSTİ İSA QIZI MEHRALIYEVA**

# ANA DİLİ TƏLİMİNDƏ DİL QAYDALARININ ÖYRƏDİLMƏSİ ÜZRƏ İŞİN SİSTEMİ

**5801.01 – Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası (Azərbaycan dilinin tədrisi metodikası)**

**Pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**AVTOREFERATI**

**B A K I - 2014**

Dissertasiya Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan dili və onun tədrisi metodikası kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Nadir Əziz oğlu Abdullayev**
*pedaqogika üzrə fəlsəfə doktoru,*
*professor, əməkdar müəllim*

**Rəsmi opponentlər:** **İbrahim Məhəmməd oğlu Bayramov**
*filologiya üzrə elmlər doktoru, professor*

**Asif Xatabala oğlu Hacıyev**
*pedaqogika üzrə fəlsəfə doktoru*

**Aparıcı təşkilat:** Azərbaycan Müəllimlər İnstitutunun Azərbaycan dili və onun tədrisi metodikası kafedrası

Müdafiə "_25_" _11_ 2014-cü ildə saat _____ da Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən FD 02.061 Dissertasiya şurasının iclasında kiçik akt zalında keçiriləcəkdir.

Ünvan: Az – 1000, Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 34

Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat " ___" __________ 2014-cü ildə göndərilmişdir.

**Dissertasiya şurasının elmi katibi:** **K.R.Quliyeva,**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Müstəqil Azərbaycan Respublikasında digər sahələrdə olduğu kimi təhsil sahəsində də bir sıra uğurlu nəticələr əldə edilmişdir. Bu sahədə qazanılan uğurları dövlət səviyyəsində aparılan ardıcıl və davamlı təhsil siyasətinin qanunauyğun nəticəsi kimi qiymətləndirmək olar. Bugünkü nailiyyətlərimizin əsası hələ ötən əsrin 90-cı illərində "Təhsil millətin gələcəyidir" söyləyən Ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş, Azərbaycan təhsilinin gələcək inkişaf perspektivləri bu dövrdə, onun tərəfindən təsdiq olunmuş İslahat Proqramında öz əksini tapmış, qərarlaşdırılmışdır. Artıq bu gün respublikamızın təhsil sistemi dünyanın aparıcı ölkələrinin təhsil sisteminə uyğunlaşdırılaraq qabaqcıl təcrübədən bəhrələnməklə, mütərəqqi yenilikləri əxz etməklə inkişaf etməkdə, günü-gündən təkmilləşməkdə və öz bəhrələrini verməkdədir. "Milli zəminə, bəşəri dəyərlərə söykənən, demokratikləşmə, humanistləşdirmə, diferensiallaşdırma, fərdiləşdirmə və inteqrasiya kimi prinsiplərə üstünlük verən, təhsil alanın bu prosesin əsas subyektinə çevrilməsini özünə əsas vəzifə hesab edən, sözün həqiqi mənasında yeni Milli təhsil sistemi yaradılmaqdadır"[1]

Artıq bir neçə ildir ki, Azərbaycan məktəblərində Təhsil İslahatı, yeni təhsil sisteminin yaradılması üzrə iş gedir. Bu təhsil zamanın tələblərinə cavab verən bir təhsil kimi müsbət nəticələrini verməkdə, yeni məzmun standartları, təlim məqsədləri, qiymətləndirmə meyarları müəyyənləşməkdədir.

Sosial bir elm olan dil də təbiət elmləri kimi dəqiq daxili quruluşa və sistemə malikdir. Bu sistemdə fəaliyyət göstərən daxili qanunauyğunluqlar dili tənzimləyir və onun mövcudluğunu təmin edir. Dil sisteminin bir ucunda ən kiçik dil vahidi olan fonem (mənalı səs), digər ucunda dil vahidlərinin ən mükəmməl konstruksiyası olan cümlə dayanır. Bu sistem daxilıində hər bir dil vahidinin özünəməxsus yeri və vəzifəsi vardır. Məsələn, səslər sözü, sözlər söz birləşmələri və cümləni təşkil edir. Səsin sözdə, sözün cümlədə birləşmə qanunlarını və bu zaman baş verən müxtəlif dil hadisələrinin səbəbini bilmədən dili elmi şəkildə öyrənmək, bütöv bir sistem kimi qavramaq mümkün olmaz. Dilə məxsus nəzəri müddəaların, başqa sözlə dil qaydalarının öyrədilməsində dil sisteminə əsaslanmaq, ayrı-

---

[1] Hacıyeva İ.M., Qəndilov R.T., Musayeva Z.Y. və b. "Həyatı bacarıqlara əsaslanan təhsil (müəllimlər üçün tədris vəsaiti). I – IV siniflər, Bakı, 2007, s.4

ayrı dil vahidləri arasında mövcud olan daxili əlaqəni nəzərə almaq lazım gəlir. Əks halda sistemsizlik pərakəndəliyə, pərakəndəlik isə bacarıq və vərdişlərin dayanıqsızlığına səbəb olar.

Dil qaydalarından biri digəri üçün zəmin hazırlayır, qavranılması nəzərdə tutulan yeni qaydanın dərkində və tətbiqində açar rolunu oynayır. Deyək ki, şəkilçilərin dildə rolu, sözdəyişmə və sözyaratma funksiyası barədə bitkin təsəvvürlərə malik olmadan dildə sözyaratma qaydalarını, morfoloji kateqoriyaların (inkarlıq, şəxs, mənsubiyyət və s.) mahiyyətini, fəaliyyət sferasını qavramaq mümkün olmaz. Yaxud bəzi leksik, orfoqrafik və orfoepik normalara bələd olmadan sözün cümlədə işlənmə məqamını, düzgün yazılış və tələffüz formalarını necə müəyyən etmək olar? Dil faktlarının qavranılmasında dildaxili əlaqəni müəyyənləşdirmək, qrammatik ümumiləşdirmələr apara bilmək çox vacib şərtlərdəndir. Bu məsələnin əhəmiyyətini xüsusi vurğulayan Ə.Fərəcov yazırdı: "Dilin qrammatik quruluşunu şagirdlərin başa düşmələri üçün dilin bölmələri arasında əlaqə yaratmağı, oxşar və fərqli cəhətləri görməyi şagirdlərə öyrətmək lazımdır. Ona görə də Azərbaycan dili dərslərində şagirdlərə yalnız ayrı-ayrı biliklər verilmir, həm də bu biliklər nizama salınır, sistemləşdirilir, biri digəri ilə əlaqələndirilir. Şagirdin ağlını ayrı-ayrı dağınıq faktlar yox, öyrənilən faktların sistemi, biliklər sistemi formalaşdırır ki, burada da bütün faktlar və onların ümumiləşdirilməsi bir-biri ilə əlaqələndirilib vahid bütövlük əmələ gətirir"[1].

Deməli, buradan belə bir təbii nəticə çıxır ki, dil qaydalarının ardıcıl və sistemli öyrənilməsi nəzərdə tutulan biliklərin asan və elmi əsaslarla qavranılması istinad materialları üzərində işin səmərəli və şüurlu təşkilinə kömək edir ki, bu da **mövzunun aktuallığını** şərtləndirən başlıca amillərdəndir.

**Tədqiqatın obyekti** ibtidai siniflərdə ana dili təlimində dil qaydalarınını öyrədilməsi prosesidir.

**Tədqiqatın predmetini** ana dili təlimində dil qaydalarının öyrədilməsi üzrə işin sistemi təşkil edir.

**Tədqiqatın məqsədi** ana dili təlimində dil qaydalarının öyrədilməsi üzrə işin təşkili, şagirdlərə ən səmərəli üsullarla dilə dair nəzəri biliklər və tətbiqi təcrübə qazandırmağa kömək etmək, mövcud dərslikləri və metodik vəsaitləri təhlil edərək üstün və çatışmayan cəhətlərini üzə çıxarmaq, qrammatikanın ibtidai kursunun daha da təkmilləşdirilməsi üçün təkliflər ver-

---

[1] Fərəcov Ə.A. Qrammatik məfhumların mənimsənilməsi, Bakı, Maarif, 1967, s.35

mək, varisliyin təmin edilməsində dilin sistemli tədrisinin rolunu əsaslandırmaq, dil qaydalarından istifadənin optimal üsul və yollarını işləyib hazırlamaqdır.

**Tədqiqatin fərziyyəsi.** Aparılan eksperimentlər, təcrübi müşahidələr onu deməyə əsas verir ki, dil qaydaları ardıcıl, sistemli və müasir təlim metodları ilə tədris edilərsə, şagirdlər bu qaydalara sırf nəzəri məlumat kimi yanaşmayıb onun təcrübi əhəmiyyətini şüurlu şəkildə dərk edərək nitq inkişafı prosesinə tətbiq edərlərsə, ondan qrammatik biliklərin dil normaları ilə vəhdət təşkil etdiyini qavramaq zəminində faydalana biləcəklər.

**Tədqiqatın qarşısında duran vəzifələr bunlardır:** 1) ibtidai siniflərin ana dili kurikulumlarında dil qaydalarının mənimsədilməsi sisteminin qoyuluşunu araşdırmaq; 2) elmi-metodik ədəbiyyatda dil qaydalarının mənimsədilməsi problemi ilə bağlı əksini tapmış fikirlərə münasibət bildirmək; 3) dil qaydalarının öyrədilməsi probleminə verilən mövcud tələbləri müəyyənləşdirmək; 4) dil qaydalarının düzgün mənimsədilməsinin şagirdlərin yazılı və şifahi nitqinin inkişafında rolunu üzə çıxarmaq; mövzuya uyğun olaraq mövcud proqram, dərslik və metodik vəsaitlərin təhlilini vermək; 5) dil təliminin ilkin mərhələsində fonetikaya dair dil qaydalarının mənimsədilməsi sistemini müəyyənləşdirmək; 6) leksikologiya ilə bağlı dil qaydalarının mənimsədilməsi sistemini təqdim etmək; 7) qrammatikaya dair dil qaydalarının mənimsədilməsində ortaya çıxan çətinlikləri aradan qaldırmaq üçün ən zəruri metod və vasitələr tapmaq; 8) tədqiqatdan doğan nəticələri bu sahənin mütəxəssisləri ilə müzakirə edərək mümkün rəy, təklif və iradları nəzərə almaq, dil qaydalarının mənimsədilməsi ilə bağlı mövcud tədqiqatları daha da təkmilləşdirmək.

**Tədqiqatın metodoloji əsasını** pedaqoji fakt və hadisələri öyrənmək, dərk etmək və dəyişdirmək məqsədilə tətbiq edilən prinsiplərin, metodların, vasitələrin və nəzəri müddəaların məcmusu təşkil edir.

**Tədqiqatda istifadə edilən əsas metodlar.** Tədqiqat işinin spesifikasına uyğun olaraq burada fəal (interaktiv), təhlil və ümumiləşdirmə, müşahidə, müsahibə, anket sorğusu, pedaqoji eksperiment və s. kimi metodlardan istifadə olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi** bununla müəyyənləşir ki, ibtidai siniflərdə yeni kurikulumlar əsasında Ana dili təliminin əsas istiqamətlərindən olan dil qaydalarının öyrədilməsi yolları və sistemi ilk dəfə olaraq bu qədər geniş şəkildə tədqiqata cəlb edilir və əldə edilən nəticələr təhlil olunaraq ümumiləşdirilir. Bu problemlə bağlı elmi-metodiki ədəbiyyatda müəyyən fikir və mülahizələr, rəy və təkliflərə rast gəlinsə də, mövzu dissertasiya sə-

viyyəsində birinci dəfədir ki, araşdırılır. Bu işin əsas mahiyyətinin şagirdlərdə düzgün və rabitəli nitq vərdişləri formalaşdırmaqdan ibarət olması konkret materiallarla əsaslandırılır.

**Tədqiqatın nəzəri əhəmiyyəti**. İbtidai siniflərdə ana dili təliminin məqsəd və vəzifələri baxımından Azərbaycan dilinə dair dil qaydalarının müasir tələblər səviyyəsində, uyğun metodlarla öyrədilməsi şagirdlərin bu qaydaların mahiyyətini aydın dərketmə işinə yardımçı olur, eyni zamanda dil qaydalarının verilməsindəki bəzi pərakəndəliklərin aradan qaldırılmasına yol açır. Tədqiqat işində hər bir dil qaydasının dərslikdə təqdim edilmə səviyyəsi, metodiki aspektləri təhlilə cəlb edilir, nəzəri mülahizələr irəli sürülür. Ana dili təliminin ilkin mərhələsində dil qaydalarına dair məlumatların öyrədilməsinin nəzəri əsasları hazırlanır.

**Tədqiqatın praktik əhəmiyyəti** ondadır ki, bu işin nəticələrindən həm ibtidai sinifdə Azərbaycan dili təlimində, həm də bütövlükdə qrammatika təlimində mənbə kimi istifadə etmək olar. Proqram, metodik vəsait və dərsliklərin yeni nəşrində tədqiqat işində irəli sürülən təklif və iradlardan, dil qaydalarının mənimsədilməsinin səmərəliliyini artırmağa yönəldilmiş mülahizələrdən bəhrələnmək mümkündür. Ana dili təliminin məqsəd və vəzifələrinin düzgün müəyyənləşdirilməsi baxımından da dissertasiyada irəli sürülən müddəalar gərəkli ola bilər. Dissertasiyadan bu sahənin mütəxəssisləri, o cümlədən ibtidai sinif müəllimləri öz təcrübələrində yararlana bilərlər.

Müdafiəyə təqdim olunan **müddəalar** aşağıdakılardır:

a) Dil qaydalarının ardıcıl və sistemli şəkildə öyrədilməsi nəzərdə tutulan biliklərin asan və elmi əsaslarla qavranılmasını təmin edir; b) dil qaydalarının mənimsədilməsi ilə bağlı tədris-metodiki ədəbiyyatda və məktəb təcrübəsində rast gəlinən nöqsanların təhlili və aradan qaldırılması yollarını müəyyən etmək çox aktualdır; c) dil qaydalarına sırf nəzəri məlumat kimi yanaşmayıb, ondan ibtidai sinif şagirdlərinin nitq inkişafı, cümlə qurmaq vərdişlərinin formalaşması aspektində istifadə etmək zəruridir; ç) dil qaydalarının məzmunu, şagirdlərin yaş, psixoloji və əqli imkanlarına uyğun bir şəkildə daxili əlaqə və inkişafyönümlü səviyyədə tədris olunmalıdır; d) ibtidai siniflərdə dil qaydalarına aid biliklərin sistemli və ardıcıl şəkildə öyrədilməsi bu biliklərin gələcəkdə daha geniş əsaslarla tədrisinə zəmin hazırlayır.

**Tədqiqatın nəticələrinin aprobasiyası və tətbiqi.** Dissertasiya ADPU-nun "Azərbaycan dili və onun tədrisi metodikası" kafedrasında hazırlanmış, dissertasiyada irəli sürülən fikirlər kafedrada keçirilən elmi se-

minarlarda müzakirə edilmiş, dissertantın mövzu ilə bağlı çıxışları dinlənilmişdir. Dissertasiyanın əsas müddəaları iki tezis, on iki məqalə və bir dərs vəsaitində öz əksini tapmışdır.

**Tədqiqatın quruluşu.** Tədqiqat işi giriş, iki fəsil, nəticə və təkliflər, istifadə edilmiş ədəbiyyat göstəricisindən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı əsaslandırılmış, tədqiqatın elmi yeniliyi şərh olunmuş, işin məqsəd və vəzifələri müəyyənləşdirilmiş, müdafiəyə çıxarılan müddəalar təqdim edilmiş, elmi – praktik əhəmiyyəti əsaslandırılmışdır.

Dissertasiyanın **"Tədqiqatın ümumi məsələləri"** adlanan I fəslində ana dili kurikulumlarında dil qaydalarının öyrədilməsi probleminin qoyuluşu və problem baxımından mövcud proqram, dərslik və metodik ədəbiyyat təhlil edilmiş, təklif və tövsiyələr verilmişdir. Fəsil müvafiq olaraq 2 yarımbaşlıqda öz əksini tapmışdır. *"Ana dili kurikulumlarında dil qaydalarının öyrədilməsi problemlərinin qoyuluşu"* adlanan birinci yarımfəsildə mövcud kurikulumlarda dil qaydalarının öyrədilməsinin məqsəd və vəzifələri təhlil süzgəcindən keçirilərək bu qənaətə gəlinmişdir ki, bunlar əvvəlki illərdən əsaslı şəkildə fərqlənir. Belə ki, əvvəlki illərdə dilçiliyə dair geniş anlayışların verilməsi əsas məqsəd kimi götürülür, şagirdlərə mümkün qədər çox dil qaydalarını yadda saxlamaq bir məqsəd və vəzifə kimi həvalə edilirdisə, yeni kurikulumlarda zəruri dil qaydalarını mənimsəməklə yanaşı bu qaydalardan nitq vərdişlərini inkişaf etdirən bir vasitə kimi istifadə etmək bacarığı ön plana çəkilir. Dil qaydalarına aid verilən biliklər nitq inkişafını stimullaşdıran bir prosesə çevrilir, şagird dil qaydalarından məqsədəuyğun şəkildə istifadə etməklə nitqin müxtəlif növləri və üslubları üzrə praktiki biliklər əldə edir, şifahi və yazılı mətnlər, dialoqlar quraraq öz nitqini ardıcıl və sistemli şəkildə təkmilləşdirir, normalaşdırır.

İbtidai siniflər üçün hazırlanmış mövcud ana dili kurikulumlarında bu fənnin fəaliyyət istiqamətləri, məzmun xətləri və standartları, təlim nəticələri çox aydın və konkret şəkildə öz əksini tapmışdır. Yeni kurikulum hazırlanarkən bir sıra sualların cavabı nəzərə alınmışdır: 1) nə üçün öyrədəcəyik? (məqsəd); 2) nəyi öyrədəcəyik? (məqsədin reallaşacağı məzmun); 3) necə öyrədəcəyik? (tədrisin üsul və vasitələri, resursları); 4) necə öyrətdik? (nəticənin ölçülməsi və qiymətləndirilməsi meyarı)[1].

---

[1] Tanrıqulu N.İ. Proqram necə olmalıdır? "Kurikulum" jurnalı, 2012, №1, s.28

Ənənəvi tədris proqramları ilə Milli Kurikulumları müqayisə etdikdə bir sıra əsaslı fərqlərin mövcudluğu üzə çıxır:

| N | Ənənəvi proqram | Milli Kurikulum |
|---|---|---|
| 1 | Bilikyönümlüdür | Şəxsiyyətyönümlüdür |
| 2 | Müəllimyönümlüdür | Şagirdyönümlüdür |
| 3 | Fənnyönümlüdür | Nəticəyönümlüdür |
| 4 | Təklifyönümlüdür | Tələbəönümlüdür |
| 5 | Fəndaxili və fənlərarası əlaqə məqsədyönümlü və sistemli deyil | İnteraktivlik əsas prinsip kimi qəbul edilib |
| 6 | Bəzi fənlər üzrə qiymət normaları müəyyən edilib | Qiymətləndirmə standartları və mexanizmləri müəyyən edilib[2] |

Fənn kurikulumlarının təhlili göstərir ki, doğrudan da, Azərbaycan respublikasında ümumi təhsilin konsepsiyasını müəyyən edən bu sənəd təlim prosesi ilə bağlı bütün fəaliyyətlərin təşkili və həyata keçirilməsini özündə cəmləndirən mühüm bir mənbədir. Ona görə də kurikulum dedikdə məzmun və qiymətləndirmə standartlarını, tədris planı və proqramlarını, şagirdə və onun hazırlıq səviyyəsinə verilən tələbləri, hər bir dərsin konkret inkişafetdirici məqsədlərini, metodik təminatını, dəyərləndirmə modelini, texniki təchizatı özündə ehtiva edən, müəllim və məktəb qarşısında duran vəzifələri və onların konkret həlli yollarını göstərən konseptual sənəd nəzərdə tutulur.

Ana dili kurikulumlarında dil qaydalarının öyrədilməsi probleminə çox geniş yer verilsə də, bu məsələ ilə bağlı nəzərdə tutulanları konkret şəkildə aşağıdakı kimi ümumiləşdirmək olar: şagird dil qaydalarının mənimsədilməsi zəminində "zəruri fonetik, leksik, qrammatik anlayışları izah edir, onları bir-birindən fərqləndirir, mülahizələrini müxtəlif üsullarla əsaslandırır və təqdim edir, şifahi və yazılı nitqində dilə aid qaydaları mənimsədiyini nümayiş etdirir"[3].

İbtidai siniflər üçün fənn kurikulumlarında ana dili təlimində dil qaydalarının öyrədilməsindən əldə edilən təlim nəticələri həm ümumi, həm də hər bir sinif üzrə ayrıca müəyyənləşmişdir. I sinifdə ana dili təlimində şagirdlərə öyrədilənlərin "dil qaydaları" adlandırılması şərti xarakter daşıyır, əslində bunlar dil qaydalarının elmi əsaslarla mənimsənilməsinə giriş xarakteri daşıyır. Şagirdlər bu sinifdə səsi hərfdən, saiti samitdən

---

[2] Veysova Z. Yeni fənn kurikulumlarını tətbiq edəcək ibtidai sinif müəllimləri üçün treninqin proqram və icmalı. Bakı, 2010, s.16

[3] Ümumtəhsil məktəblərinin I-IV siniflər üçün fənn kurikulumları (tərtibçilər: A.Əhmədov, Ə.Abbasov), Bakı, Təhsil, 2008, s.15

fərqləndirməyin, sözdəki hecanın onun tərkibindəki sait səsin miqdarına uyğun olmasının fərqinə varır, sözlərin tək və cəm kəmiyyətə, müxtəlif qrammatik mənalara malik olmasını dərk edirlər. Cümləni sözdən fərqləndirərək onun müxtəlif növləri üzərində müşahidələr aparır, bu dil vahidinin fikrin ifadəsi üçün başlıca vasitə olmasını konkret nümunələrlə praktik əsasda mənimsəyirlər.

II-IV siniflərdə dil qaydalarının öyrədilməsi məsələsi inkişaf etdiricilik prinsipi üzrə nisbətən genişlənmiş xarakter alır. Əvvəllər müxtəlif dilçilik anlayışları və terminləri şagirdlərin başa düşəcəkləri sadə sözlərlə təqdim edilməklə sonda şagirdin dil qaydaları haqqında bilik və təsəvvürləri yetərincə formalaşmış olur.

Ana dili kurikulumlarında dil qaydalarının mənimsədilməsi ilə bağlı biliklərin verilməsi ilə yanaşı şagirdlərdə bir sıra ümumi bacarıqların da formalaşdırılması nəzərdə tutulmuşdur. Bunlara aşağıdakıları aid etmək olar: araşdırma, təhlil etmə bacarığı, tədqiqatçılıq bacarığı, tənqidi düşünə bilmək bacarığı, yaradıcı düşünmək bacarığı, təşəbbüskarlıq bacarığı, informasiya texnologiyalarından istifadə etmək bacarığı, ünsiyyət, əməkdaşlıq bacarığı və s.

I fəslin *“Problem baxımından mövcud proqram, dərslik və metodik ədəbiyyatın təhlili”* adlanan ikinci yarımfəslində indiki proqram, dərslik və metodik ədəbiyyat əvvəlki illərə aid bu tip materiallarla müqayisəli şəkildə təhlil edilir, təklif və tövsiyyələr irəli sürülür. Bilindiyi kimi, ana dili təlimində yeni kurikulumların tətbiqi müvafiq olaraq yeni dərs vəsaiti və dərsliklərin hazırlanması zərurətini ortaya qoydu. Bu məqsədlə 2008-2009-cu dərs ilindən başlayaraq ibtidai siniflər üçün yeni dərsliklər yaradıldı. Hər il ardıcıl şəkildə həyata keçirilən bu yeniləşmə artıq 2011-2012-ci dərs ilində, yəni 4-cü siniflər üçün Azərbaycan dili dərsliyi ilə başa çatmış oldu. Yeni dərsliklərə əlavə edilən müəllimlər üçün metodik vəsait və şagirdlər üçün iş dəftəri komplekt dərslik yaratmaq məqsədinə imkan verdi.

Bəri başdan deyək ki, oxu materiallarını da özündə cəmləşdirən bu dərsliklərin “Azərbaycan dili” adlandırılması bizə o qədər də doğru görünmür, ona görə ki, burada oxu materialları dil materiallarından xeyli artıqdır. Bu səbəbdən də interaktiv mahiyyətli “Ana dili” termini bizə daha uyğun görünür. Hazırda ümumtəhsil məktəblərinin ibtidai siniflərində tədris edilən Azərbaycan dili dərslikləri öz orijinal tərtibatı, mövzuların rəngarəngliyi, öyrədilməsi nəzərdə tutulanların elmi səviyyəsi, məzmun standartları, təlim strategiyası və metodikası ilə əvvəlki dərsliklərdən kifayət qədər fərqlənir. Vəsait və dərslikdə şagirdlərin ümumi nitq və dil bacarıqlarını

formalaşdırmaqla onların nitq mədəniyyətinə yiyələnmələri ibtidai siniflərdə Ana dili təliminin əsas məqsədi kimi nəzərdə tutulmuşdur.

Dərsliklərin proqramlara uyğunluğu qənaətbəxş səviyyədədir. 2010-cu ildən başlayaraq Təhsil Problemləri İnstitutunun əməkdaşları tərəfindən müəllimlərə kömək məqsədilə Azərbaycan dili fənnini də əhatə edən Yeni fənn kurikulumları üzrə təlim materiallarının təxmini planlaşdırılmasını özündə əks etdirən metodik tövsiyələr də hazırlanmışdır.

Müəllimlərə tövsiyə edilən planlaşdırma nümunələrində Azərbaycan dilinə aid məzmun standartları, yeni təlim strategiyaları əsas götürülmüş, mövcud dərsliklərə istinad edilmişdir. Burada o da diqqətə çatdırılmışdır ki, müəllimlər bu nümunələr əsasında özlərinin potensial imkanlarını nəzərə alacaqlar. Ancaq planlaşdırma ilə metodik vəsaitdə "Dinləmə" başlıqlı mövzulara ayrıca saat verildiyi halda, tematik planda bu iş dərsin tərkib hissəsi kimi nəzərdə tutulmuşdur. Anlayışların adlandırılmasında da kifayət qədər fərqlər mövcuddur. Məsələn, metodik vəsaitdə "Dinləmə və yazı üzrə qiymətləndirmə. Oxu və qaydaları üzrə qiymətləndirmə" kimi təqdim olunanlar tematik planda "Kiçik summativ qiymətləndirmə" adlanır. Mahiyyətcə eyni olan bir şeyin müxtəlif adlarla verilməsi səriştəsi zəif olan müəllimlərdə müəyyən çaşğınlığa səbəb olur. Yazı və oxu dərslərinin növbələşməsində də xeyli fərqlər mövcuddur ki, belə hallar müəllimdən yaradıcı fərdi yanaşma tələb edir.

Bəri başdan deyək ki, ənənəvi dərsliklərdən fərqli olaraq yeni dərsliklərin ən üstün cəhəti qrammatik biliklərin öyrədilməsinin daha çox təcrübi, əməli mahiyyətli olmasındadır. Şagird hər hansı bir dil qaydasını öyrənərkən onun tətbiqetmə mexanizmi ilə də tanış olur, əldə etdiyi elmi görüşləri təcrübədə həyata keçirmək imkanı qazanır, daha sonra isə bacarıq və vərdişə çevirə bilir. Məlumdur ki, dil qaydalarının kor-koranə əzbərlənməsi, dərk edilməməsi onun tez də unudulmasına, yaddan çıxmasına səbəb olur, qavranılan və təcrübədə istifadə edilən bir şey isə heç vaxt unudulmur.

Yeni dərsliklərin təhlil və şərhinə keçməzdən əvvəl dil qaydalarının məzmun standartları ilə bağlı vacib bir məsələyə öz münasibətimizi bildirmək istərdik. Yeni Azərbaycan dili dərsliklərində bizi qane etməyən bir neçə cəhətdən biri dil qaydalarına aid biliklərin əvvəlki dərsliklərlə müqayisədə həcmcə çoxalması və bu biliklərin əsasən 2-ci və 3-cü sinif dərsliklərində cəmləşməsidir. Halbuki, bu qaydaların bəzilərini 4-cü sinfə keçirərək tədris etmək olardı. Bu sinifdə tədris edilənlərin əksəriyyəti təkrar və möhkəmləndirici xarakterli olduğundan dil qaydalarının öyrədilməsi işinin

siniflər üzrə bölgüsünə xələl gəlmişdir. Bundan başqa, elə dil qaydaları vardır ki, bunları 2-ci və ya 3-cü sinifdə öyrətməkdən, 4-cü sinifdə öyrətmək daha asan və düz anlaşılan olardı.

Təhlil nəticəsində məlum oldu ki, əvvəlki dərsliklərdə olan bəzi mövzular ümumiyyətlə yeni dərsliklərə salınmamışdır.

Yeni dərsliklərdə yer almış əlavə dil qaydaları üzərində müşahidələrdən məlum olur ki, bu qaydaların əksəriyyəti təsrübi-əməli mahiyyətli olub, şagirdlərin nitq və yazı mədəniyyətlərinin inkişafına xidmət edir. Bu qaydaların əksəriyyəti söz və onun məna növləri, işlənmə məqamları ilə bağlıdır. Məsələn, "Sözün sətirdən-sətrə keçirilməsi", "Hərflərin əlifba sırası", "Lüğətdən istifadə", "Sözlərin yazılışı və deyilişi", "Söz və onun mənası", "Sözün izahı", "Nida etiketləri", "Yazı və tələffüz" (2-ci sinif) mövzularının tədrisi nəticəyönümlü olub, şagirdlərin söz haqda biliklərinin, ondan istifadə etmək yollarının inkişafına, düzgün nitq bacarıq və vərdişlərinin formalaşdırılmasına hesablanmışdır. 3-cü sinif dərsliyindəki "Dil qaydaları üzrə təkrar", "Sözlərin deyilişi və yazılışı", "Saitlərin orfoqrafiyası", "Vurğulu heca", "Söz sonunda bəzi samitlərin tələffüzü", "Terminlər", "Mürəkkəb sözlərin yazılışı", "Durğu işarələri" kimi mövzular da təcrübi xarakterli olub, şagirdlərdə sözün yazılışı və deyilişi ilə bağlı orfoqrafik və orfoepik vərdiş və bacarıqların formalaşdırılması məqsədinə xidmət edir. Təzə dərsliklərdə bu cür mövzulara yer verilməsi və bunların dominant xarakterli olması yeni fənn kurikulumları əsasında hazırlanmış dərsliklərin təlim məqsədini müəyyən edir ki, bu da tamamilə təqdir olunandır.

Beləliklə, yenilənmiş mövzular, yenilənmiş təlim materialı öz xarakteri etibarilə yeni yanaşmalar, innovasiyalar, təlim metodları və təlim üsulları tələb edir ki, bu da dil qaydalarının öyrədilməsi işinin yenilənmiş sistemini müəyyən edir. Dil qaydalarına aid bir çox biliklərin möhkəmləndirilməsi və genişləndirilməsində "Oxu" dərsi üçün nəzərdə tutulan mətnlər istinad materialı rolunu oynayır.

Onu da qeyd edək ki, istər ümumi məqsədlərin, istərsə də dil qaydalarının mənimsədilməsində müəllimlər üçün hazırlanmış metodik vəsaitin müstəsna əhəmiyyəti vardır. Məqsədli, nəticəli, fəaliyyətyönümlü, addım-addım şərhli qiymətləndirmə nümunələri ilə zəngin olan bu vəsaitlər əslində həm də müasir proqram mahiyyəti daşıyır. Bizə belə gəlir ki, bu vəsait olmadan müəllimin nəzərdə tutulan təlim nəticələrini əldə etməsi çox çətin olar, müəllimdən xüsusi istedad və pedaqoji səriştə tələb edərdi. Metodik vəsaitin üstünlüyü bundadır ki, burada müasir qabaqcıl təcrübə ümu-

miləşdirildiyindən bundan həm yeni başlayan, həm də kifayət qədər təcrübəsi olan müəllimlər səmərəli şəkildə istifadə edə bilərlər.

Dil qaydalarının mənimsədilməsi sisteminin bünövrəsi hələ I sinifdə savad təliminə aid ilk dərslərdən qoyulur. Bu mərhələdə aparılan dərslərdə dil qaydalarına aid anlayışlar heç bir nəzəri qayda olmadan ümumi şəkildə şagirdlərin özlərinin müstəqil şəkildə əldə etdikləri nəticələr əsasında qurulur. Hələ hərfləri tanımayan, sözləri və cümlələri oxuya bilməyən birincilərin nitqi müxtəlif məqsəd və məzmunlu şəkillərlə inkişaf etdirilir, cümlə, söz birləşməsi, əşya, əlamət, say və hərəkət bildirən sözlər, səs, hərf və heca haqqında onlarda ilkin təsəvvürlər formalaşdırılır. Nitq inkişafına xidmət edən bu prosesin gedişində şagirdlər öz nitqinin cümlələrdən, cümlələrin sözlərdən, sözlərin hecalardan, hecaların səslərdən təşkil olunduğunu müşahidə edir, bütün bu dil vasitələrinin birləşərək müəyyən bir fikir ifadə etməsini anlayırlar.

Yekun olaraq demək istərdik mövcud dərslik, dərs vəsaiti və proqramlarda müasir təlimin prinsipləri ən yüksək səviyyədə nəzərə alınmış, burada Azərbaycan dili tədrisinin məqsəd və vəzifələrini həyata keçirmək üçün kifayət qədər geniş məzmun standartlarını əhatə edən təlim materialı öz əksini tapmışdır. Bəzi mövzuların və məzmun xətlərinin tədrisində ortaya çıxan və iradımıza səbəb olan elmi-metodiki yanlışlıqların isə gələcək nəşrlərdə aradan qaldırılacağına əminik.

**Dissertasiyanın II fəsli "İbtidai siniflərdə dil qaydalarının dilçilik bölmələri üzrə sistemli tədrisi metodikası"** adlanır. Bu fəsil özündə 4 yarımbaşlığı əhatə edir. Əvvəldə qeyd etdiyimiz kimi, dil bütöv bir sistem təşkil edir. Bu sistemdə mövcud olan daxili qanunauyğunluqları bilmədən, dil qaydalarının bir-biri ilə dialektik vəhdətini nəzərə almadan onu tam və yetərli səviyyədə qavramaq mümkün deyildir.

*"Fonetika, orfoepiya və orfoqrafiya ilə bağlı dil qaydalarının öyrədilməsi sistemi"* adlanan birinci yarımfəsildə dilçiliyin bu bölmələrinin tədrisi imkanları nəzərdən keçirilir. Məlum olduğu kimi, birinci sinifdə ana dili dərsləri 3 mərhələdə həyata keçirilir: a) əlifba təliminə qədərki dövr; b) əlifba (savad) təlimi dövrü; c) əlifba təlimindən sonrakı dövr. Fonetika, orfoqrafiya və orfoepiya ilə bağlı dil qaydalarının öyrədilməsinin təməli 2-ci mərhələdə qoyulur. Şagirdlər bu dövrdə hərf, heca-söz ardıcıllığı ilə hərfləri və onların ifadə etdiyi səsləri yadda saxlayır, səslərdən əmələ gələn sözləri yazıb-oxumaqla onların düzgün yazılış və tələffüz formalarını mənimsəyirlər.

Fonetika tədrisini orfoqrafiya və orfoepiya tədrisindən ayrı təsəvvür etmək olmadığına görə hələ başlanğıcdan bunların əlaqəli öyrədilməsi vacibdir. Səs haqqında biliklərin əməli şəkildə öyrədilməsi üçün səsin sözlə müqayisəsi də effektiv nəticələr verir. Bu məqsədlə belə bir təlim formasından istifadə etmək olar: şagirdlərə göz şəkli göstərilərək onlardan bunun nə olduği soruşulur. Şagirdlər təsvirdəkinin göz olduğunu söyləyirlər. Müəllimin təklifi ilə şagirdlər "göz" sözündəki səsləri fərqləndirirlər: g+ö+z.

Eksperiment qoyduğumuz məktəblərdəki nəticələr göstərir ki, şagirdlər bu cür tərtib edilən tapşırıqlara daha çox həvəs göstərir, onu asanlıqla qavrayır və icra edirlər. Dərslikdə təsvir edilən *maral, ayı, fil, meymun, pələng* və s. şəkillər vasitəsilə bu iş əyaniləşdirilir. Əgər şagirdlər xanaları uyğun şəklin (adın, əlamətin, hərəkətin) altına düzərək lazımı sözü tapa bilirlərsə, deməli nəticə əldə edilmiş, onlarda sözün səs tərkibi haqqında düzgün təsəvvürlər formalaşdırılmışdır. Əks halda bu işi bütün sinfin qavrayacağı bir həddə qədər davam etdirmək lazım gəlir, çünki əlifba təlimi dövründə şagirdlərin əldə edəcəkləri fonetik, orfoqrafik, leksik-qrammatik anlayışlara dair bilik və bacarıqların sonrakı inkişafı bundan çox asılıdır. Növbəti dərslərdə şagirdlər səsin ictimai mahiyyəti, növləri (sait və samit səslər), səsin sözün müxtəlif hissəsində işlənməsi üzərində iş apararaq səsin sözdə rolu və yeri kimi məsələlərə də diqqət yetirirlər. Hər bir yeni hərf öyrədilərkən onun ifadə etdiyi səs bura qədər öyrədilənlərlə müqayisəli şəkildə tədris olunur.

Bu nəticə əldə edildikdən sonra sözün səs və heca tərkibi üzərində iş aparılaraq fonetik təhlilin aparılması üzrə ilk təcrübələr əldə edilir. Bunun üçün qruplar şəklində işdən istifadə edilir.

I qrup: a, n, t səslərinin iştirakı ilə yaranan sözlər taparaq yazır.

II qrup: a, n, t səslərin iştirakı ilə yaranan sözlərin səs tərkibi üzərində müşahidə apararaq burada neçə sait və samit olduğunu müəyyənləşdirir.

III qrup: sözləri hecalara parçalayır və bütöv tələffüz edir.

IV qrup: sözlərə suallar verərək onların ad, əlamət, say, hərəkət bildirən söz olması ilə bağlı mülahizələrini bildirir.

II sinifdə fonetika, orfoqrafiya və orfoepiyaya aid bir sıra yeni qaydalar öyrənməklə şagirdlər bu qaydaları təcrübədə tətbiq etmək bacarıq və vərdişlərinə yiyələnirlər.

III sinifdə orfoqrafiya və orfoepiya üzrə biliklər "Sözlərin deyilişi və yazılışı" başlığı altında öyrədilir. Şagirdlərə 2-ci sinifdən məlumdur ki, sözlərin heç də hamısı yazıldığı kimi tələffüz olunmur. Sözlərin düzgün

yazılışı və tələffüzünü bilmək üçün orfoqrafiya və orfoepiya lüğətlərinə müraciət etmək lazım gəlir. Nəzəri məlumatda öyrədilir ki, sözlərin düzgün tələffüz forması onun qarşısında mötərizə içərisində verilir: kənd (kənt), təəssüf (tə:ssüf).

IV sinifdə fonetika, orfoqrafiya və orfoepiyaya aid bəzi dil qaydaları yada salınır, təkrar edilir və bir sıra anlayışlara aydınlıq gətirilir. Məsələn, şagirdlər "Sözün səs tərkibi" mövzusunun tədrisi nəticəsində öyrənirlər ki, sözün səs tərkibi dedikdə onun yazılışı deyil, tələffüz zamanı ortaya çıxan səslər nəzərdə tutulur. Məsələn,"ailə" sözündə 4 hərf olduğu halda, tələffüz zamanı a və i saitləri arasına "y" samiti əlavə edilir və söz "ayilə" şəklində tələffüz edilir ki, bu da onun səs tərkibi deməkdir.

Tədqiqat işinin II fəslinin ikinci yarımfəsli *"Morfologiya ilə bağlı dil qaydalarının öyrədilməsi sistemi"* adlanır. Şagirdlər bu mərhələdən başlayaraq şəkillər üzərində işləyir, şifahi nitq vərdişləri üzrə təqdimatlar edirlər. Bu zaman süjetli və süjetsiz şəkillərə baxmaqla şagirdlər sözlərin müxtəlif funksiyalı olmasını dərk edirlər. Onlar ilkin müşahidələr əsasında bu nəticəyə gəlirlər ki, müxtəlif funksiya və mənalı sözlər bir bütöv halında birləşərək cümləni yaradırlar. Müəllim şagirdlərin diqqətini dərslikdə verilən şərti işarələrə cəlb edərək hər bir işarənin ifadə etdiyi mənanı başa salır və şagirdlər tərəfindən yadda saxlanılması istiqamətində əməli iş aparır.

II sinifdə morfologiyaya dair biliklərə 3-cü bölmənin "Söz və onun mənası" mövzusu ilə başlanılır. Mövzuya giriş kimi şagirdlərə belə bir nəzəri məlumat verilir: "Səslər birləşib söz yaradır... Sözlər nəyinsə və ya kiminsə adını, əlamətini, sayını və ya hərəkətini bildirir". Bundan sonra şagirdlərə tərkibində ad, əlamət, say və hərəkət bildirən sözlər iştirak edən bir cümlə təqdim edilir: "Böyük qardaşım iki maraqlı kitab almışdı". Şagirdlər cümlədəki sözlərə müvafiq suallar verməklə buradakı sözləri tələb edilən qruplara bölürlər və müəyyən edirlər ki, cümlədəki

- *qardaşım və kitab* (kim?, nə?) – ad bildirən sözlərdir.
- *böyük və maraqlı* (hansı?, necə?) - əlamət bildirir.
- *iki* (neçə?) – say bildirən sözdür.
- *almışdı* (nə etmişdi?) hərəkət bildirən sözdür.

Göründüyü kimi, mövzunun öyrədilməsi induktiv metodla həyata keçirilir. Yəni gələcəkdə tamdan hissələrə doğru inkişaf nəzərdə tutulduğundan, hər bir qrammatik məna növü ayrılıqda daha dərin və əhatəli öyrədiləcəyindən dərsin məqsədini ilkin anlayışyaratma mərhələsi kimi nəzərdə tutmaq lazımdır. Cümlədəki əlamət, hərəkət və say bildirən sözlər ad bildirən sözlərə aid olub onu izah edir: böyük (hansı?) qardaşım (kim?);

maraqlı (necə?) kitab (nə?); iki (neçə?) "*Almışdı*" sözü isə *qardaşım* sözünə aid hərəkəti bildirir.

Məlum olduğu kimi, ibtidai siniflərdə nitq hissələri elmi terminlərlə deyil, öz məzmun və mahiyyətinə uyğun adlarla tanıdılır və tədris olunur. Yalnız üçüncü sinifdə 5-ci bölmədən başlayaraq nitq hissələri müvafiq elmi normalar əsasında təqdim edilir: İsim – ad bildirən söz, Sifər - əlamət, keyfiyyət bildirən söz, Say – miqdar və sıra bildirən söz, Fel – hərəkət bildirən söz, Zərf – hərəkəti izah edən söz, Əvəzlik – nitq hissələrini əvəz edən söz və s. 1-ci və 2-ci siniflərdə "əlamət bildirən söz" anlayışı həm sifət, həm də zərf nitq hissəsinə aid sözlərə şamil olunur. Lakin bu başlıq altında verilən nümunələr və öyrədilən dil qaydaları dərslikdə göründüyü kimi, yalnız sifətləri nəzərdə tutur. Ona görə də müəllim şagirdlərin əvvəlcədən düzgün nəticəyə yönəlmələri üçün sifətin (əlamət bildirən sözlərin) isimlə (əşya bildirən sözlə) bağlılığını xüsusi qabartmalı, belə sözlərin elmi dildə **isim** və **sifət** adlanmasını aydınlaşdırmalıdır.

Say bildirən sözlər haqda biliklərə şagirdlər hələ məktəbəqədər yaşdan sahibdirlər. İkinci sinifdə say bir nitq hissəsi kimi öyrədilərkən onlar bu mövzunun qavranılmasında elə bir problemlə üzləşmirlər. Əvvəlcə say bildirən sözləri digər sözlərin içərisindən seçərək ayırır, ona suallar verirlər və yadda saxlayırlar ki, say bildirən sözlər varlığın miqdarını, nə qədər olduğunu bildirdiyi üçün neçə?, nə qədər? suallarına cavab olur. Sonra şagirdlərin diqqətinə bir müəyyən, bir qeyri - müəyyən say işlənmiş iki cümlə verilir:

1. Atam bağda beş nar ağacı əkmişdi.
2. Məktəbin həyətində xeyli adam toplaşmışdı.

Şagirdlər bu cümlələrdəki sayların aid olduğu varqlıqların miqdarı haqda öz mülahizələrini bildirirlər: Ağac necədir? – beşdir, Adam nə qədərdir? – sayı dəqiq bilinmir.

Şagirdlər deduktiv üsulun köməyi ilə nəticə çıxarırlar: bəzi saylar varlığın *dəqiq* (müəyyən), bəzi saylar isə *qeyri - dəqiq* miqdarını bildirir.

Hərəkət bildirən sözlər - fel haqda biliklərə də elmi əsaslarla 2-ci sinifdən başlanır. Məktəb təcrübəsi göstərir ki, şagirdlər *hərəkət bildirən sözlərə* aid nümunələri nitqdə daha asan fərqləndirməyi bacarırlar. Bu əsasda hərəkət bildirən sözlərə aid dil qaydalarının mənimsədilməsinə onları digər söz qrupları arasından seçib ayırmaqla başlanılır. Şagirdlər söylədikləri sözlərə suallar verərək hərəkət bildirən sözlərin *nə etmək? nə eləmək?* suallarına cavab olduğunu yadda saxlayırlar: görmək - nə etmək?, işləmək - nə eləmək? və s.

Artıq birinci sinifdən şagirdlər hərəkət bildirən sözlər – fellər haqda ilkin təsəvvürlərə malikdirlər. II sinifdə bu iş kifayət qədər genişləndirilib dərinləşdirildiyi üçün üçüncülər felə aid sözləri digər nitq hissələrindən fərqləndirməkdə heç bir çətinlik çəkmirlər. Ona görə də "Fel-hərəkət bildirən söz" mövzusuna giriş kimi verilən "Hərəkət bildirən sözlərə fel deyilir" ifadəsi onlara heç də yeni görünmür, lakin bu dərsdə şagirdlər fellə bağlı bir sıra yeni dil qaydaları ilə də tanış olurlar. Bunlara aşağıdakıları aid etmək olar:

1) Felin kökü əmr formasında olur: oxu, gəl, get, inan və s.

2) Lüğətlərdə fellər –maq, -mək şəkilçisi ilə birgə göstərilir: oxumaq, gəlmək.

3) Bu şəkilçilərlə (-maq$^2$) işlənən fellərə məsdər forması deyilir. Məsdər felin ilkin formasıdır, yəni hərəkətin adıdır.

4) Məsdərlər nə etmək? nə olmaq? sualına cavab verir.

5) Fellər təsdiq və ya inkar formasında ola bilir.

6) İnkar fellər təsdiq fellərə -ma, -mə şəkilçisi artırmaqla düzəlir (Bu müddəa şagirdlərin təsdiq və inkar fellər üzərində müşahidələrinin yekunu kimi ortaya çıxır: get+-getmə, yaz-yazma və s.

Fel mövzusunun tədrisi gedişində çalışmalar üzrə iş zamanı şagirdlər fellərin omonim səciyyəli olması haqda da biliklər əldə edirlər: qat (isim və fel), yaz (isim və fel), düz (isim, sifət və fel) və s.

Felin zamanları və cümlədə zamanlar üzrə dəyişməsinə aid dil qaydalarının mənimsədilməsi "Felin zamana görə dəyişməsi" mövzusunun tədrisinin əsas məqsədini təşkil edir. Şagirdlər öyrənirlər ki, fellərdə hərəkət və ya işin icrası üç zaman üzrə dəyişə bilir: keçmiş, indiki və gələcək zamanlar.

Felin şəxsə görə dəyişməsinə aid dil qaydaları felin şəxslərə görə dəyişməsi və bu zaman müxtəlif şəkilçilər qəbul etməsi fonunda mənimsədilir.

3-cü sinifdən başlayaraq şagirdlər ilk dəfə olaraq zərfi bir nitq hissəsi kimi tanıyırlar. Dil qaydalarına aid biliklər sistemində "Zərfin" də öz yeri olduğunu dərk edirlər.

Bizə belə gəlir ki, zərfin mahiyyətini daha asan və dəqiq başa salmaq üçün onu sifət və sayla müqayisəli şəkildə şərh etmək metodiki cəhətdən daha uyğun olardı: sifət, say varlığa (ismə) aid olub onu izah etdiyi" kimi, zərf də hərəkətə (felə) aid olub onu izah edir. Bu cür asan yolu qoyub zərf haqqında biliklərə "Hər bir varlığın adı, əlaməti, keyfiyyəti, sayı var. Onlar

nitqdə isim, sifət və sayla ifadə olunur" kimi bəsit və mücərrəd ("ifadə olunur") sözlərlə başlamaq şagirdlərin bildiklərinə yeni heç nə əlavə etmir.

Şagirdlər "Əvəzlik" nitq hissəsi haqqında ilkin təsəvvürlərə "Nitq hissələri" mövzusunun tədrisi gedişində yiyələniblər. Bu bəhsin öyrədilməsi ilə bağlı verilən 3-cü çalışmada qara hərflərlə yazılan, **onların** sözünün **uşaqlar** sözünü əvəz etdiyini müşahidə edərək bunu yeni bir söz qrupu kimi yadda saxlamışdılar. "Əvəzlik – nitq hissələrini əvəz edən söz" mövzusunun tədrisi zamanı əvəzliyə aid biliklər daha da dəqiqləşdirilir və genişləndirilir. Şagirdlər bu dərsin tədrisi nəticəsində əvəzliyin əsas nitq hissələrindən biri olduğunu, digər nitq hissələrini əvəz edən sözlərdən yarandığını ətraflı qavrayırlar.

III sinifdə əvəzliyə dair dil qaydalarının mənimsədilməsi daha çox əməli xarakterli işlər hesabına gerçəkləşdirilir ki, təcrübədə bu üsulun daha uyğun olması özünü doğruldur.

Əvəzliyin məna növləri ilə bağlı dil qaydaları şəxs, işarə və sual əvəzliklərinə aid bilikləri əhatə edir. Dərslikdə sual əvəzliyi barədə deyilənlər aydın və asan anlaşılandır: "Sual bildirən sözlər sual əvəzliyi adlanır". Bu fikri şəxs və işarə əvəzlikləri haqqında deyilənlərə şamil etmək olmur: "O" əvəzliyi kim? nə? suallarına cavab verəndə şəxs əvəzliyi, hansı? sualına cavab verəndə işarə əvəzliyidir". Məsələ burasındadır ki, Azərbaycan dili qrammatikasında "şəxs" anlayışı yalnız insanlara şamil edildiyindən şəxs əvəzlikləri bir qayda olaraq kim? sualına cavab verir: mən (kim?), sən (kim?), biz (kim?) , siz (kim?). 3-cü şəxsin əvəzliyi o (bu) ikili xüsusiyyətə malikdir; insana aid olduqda şəxs, digər canlı və sansızlara aid olduqda isə işarə əvəzliyi funksiyası daşıyır.

Beləliklə, ibtidai siniflərdə "Morfologiya" bölməsinə aid dil qaydalarının öyrədilməsi prosesində şagirdlərin əldə etdikləri təlim nəticələrini aşağıdakı kimi ümumiləşdirmək olar. Şagird:

1. Söz və onun tərkibi üzrə:

1) Sözün leksik və qrammatik mənaları haqda təsəvvürlərə yiyələnir.

2) Leksik və qrammatik mənaların bir-biri ilə əlaqəsini dərk edir.

3) Sözə suallar verməklə onları mənaca bir-birindən fərqləndirməyi nümayiş etdirir.

4) Sözün tərkibi ilə bağlı məlumatları mənimsəyərək sözün kök və şəkilçi hissələtini bir-birindən fərqləndirməyi bacarır.

5) Sözün dəyişməyən, ayrılıqda leksik mənaya malik olan hissəsinin "kök", dəyişən və ayrılıqda məna bildirməyən hissəsinin şəkilçi olduğunu dərk edir.

6) Şəkilçilərin funksiyaca sözdüzəldici (leksik) və sözdəyişdirici (qrammatik) növlərə ayrıldığını yadda saxlayır və bu istiqamətdə təqdimatlar edir.

7) Sözlərə artırılan şəkilçilərin ahəngə uyğun olaraq 1, 2 və 4 cür yazıldığının fərqinə varır.

2. Nitq hissələri üzrə:

1) Sözləri nitq hissələri üzrə fərqləndirməyi bacarır.

2) Əsas və köməkçi nitq hissələrinin fərqli cəhətləri, cümlədə rolu haqda təsəvvürlıərə sahib olur.

Dissertasiyanın II fəslinin üçüncü yarımfəsli *"Sintaksislə bağlı dil qaydalarının öyrədilməsi sistemi"* adlanır. Bu işin elmi əsaslarla mənimsədilməsinə proqram üzrə 2-ci sinfin 7-ci bölməsindən başlansa da, artıq bura qədər şagirdlər söz birləşməsi və cümlə barədə kifayət qədər əməli işləri yerinə yetirdiklərindən həmin anlayışları qavramaqda elə də çətinlik çəkmirlər. Əsas çətinlik söz birləşməsi və mürəkkəb sözləri bir-birindən fərqləndirməkdədir. Bunun üçün müəllim şagirdlərlə ilk növbədə bunların oxşar və fərqli cəhətləri üzrə iş aparmalıdır. Şagird bilməlidir ki, söz kimi söz birləşməsi də müxtəlif əşyaları, hadisələri, əlaməti və s. bildirir. Söz birləşmələri də söz kimi cümləni təşkil edir, lakin söz birləşmələrində məna sözlə müqayisədə daha dəqiqdir. Məsələn, oxumaq (söz)-kitabı oxumaq (söz birləşməsi, yarpaq (söz)-tut yarpağı (söz birləşməsi) nümunələrində olduğu kimi.

"Söz birləşməsi qrammatikanın tədqiqat obyektinə daxil olub dildə əhəmiyyətinə görə heç də sözdən geri qalmır. Söz birləşmələri də söz kimi dildə adlandırma funksiyalı olub əşyaları, hadisə və prosesləri ifadə edir. Hər şeydən əvvəl söz leksik kateqoriyadır, söz birləşməsi isə qrammatik kateqoriyadır. Söz birləşməsi söz kimi nominativ xarakterə malik olub əşyaları, hadisələri və s. ifadə etsə də, onları təklikdə, təcrid olunmuş halda deyil, bir-biri ilə əlaqədə, münasibətdə ifadə edir».

Bütün bunları 2-ci sinif şagirdinə onün başa düşəcəyi bir səviyyədə aydınlatmaq mövzunu həddən artıq sadələşdirmə tələb edir. Odur ki, dərslikdə söz birləşməsi haqqında verilənlər bu prinsip əsasında qurularaq söz birləşməsinin ən ümdə cəhətləri aydın bir şəkildə izah edilməlidir.

Cümlə haqqında dil qaydalarının öyrədilməsinə hazırlıq kimi sistemli bir şəkil təqdim edilir. İki qrupa ayrılaraq birinci qrafada şəklə aid sözlər, ikinci qrafada söz birləşmələri yazılır. Sonra şagirdlərə həmin söz və söz birləşmələrindən cümlə qurmaq təklif edilir. Deyək ki, şəkildə ağacın

budağı, ağzında pendir tutmuş qarğa və pendiri ondan almaq istəyən tülkü əks olunub. Şagirdlər qrafalarda təxminən bu sözləri yazırlar:

1. Tülkü, qarğa, pendir, qonub.
2. Ağacın budağı, budağa qonub, hiyləgər tülkü.

Şagirdlərə bu sözlərin iştirakı ilə cümlələr düzəltmək təklif edilir və aşağıdakı cümlələrin qurulmasına nail olunur:

1. Qarğa budağa qonub
2. Hiyləgər tülkü pendiri almaq istəyir.
3. Pendir çox dadlıdır və s.

Şagirdlərin düzəltdiyi cümlələrə diqqət yetirilir, onun necə qurulması haqda fikirlər dinlənilir. Şagirdlər cümlələrə diqqət edərək görürlər ki, cümlə sözlərin və söz birləşmələrinin bir-biri ilə məntiqi və qrammatik əlaqəsi ilə qurulur. Başqa sözlə, cümlə sadəcə söz yığını deyildir.

Cümlə, onun intonasiya və məqsədə görə növlərinin tədrisindən sonra cümlə üzvləri haqqında dil qaydalarının mənimsədilməsinə başlanılır. Söz birləşməsi və cümlədən fərqli olaraq cümlə üzvləri haqqında biliklər şagirdlər üçün təzədir. Dərslikdə cümlə üzvləri haqqında dil qaydası bu cür ifadə olunmuşdur: "Cümləni yaradan sözlər və söz birləşmələri cümlə üzvləri adlanır". İlk baxışda cümlə üzvlərinin mahiyyətini və funksiyasını dərk etmək baxımından bu tərif yetərli görünsə də, lakin burada bizi qae etməyən bəzi üslubi məqamlar mövcuddur: Göstərilən tərifdən sonra cümlə üzvləri ilə bağlı əlavə izahda oxuyuruq: "Onlar (yəni cümlə üzvləri – B.M.) cümlə daxilində bir-biri ilə şəkilçilər vasitəsilə bağlanır. Hər bir cümlə üzvü müəyyən suala cavab verir". Bu iki cümlədən sonuncusunda cümlə üzvü olmağın ən vacib bir elementi öz əksini tapmışdır, yəni cümlə üzvü olmaq üçün cümlədə müəyyən bir suala cavab vermək lazımdır. Buna görə də tərifdə bu məqamın öz əksini tapması çox zəruridir.

Dil qaydalarına aid biliklər sistemində dialoq və xitablara dair biliklərin də öz yeri vardır. Dərslikdə dialoq mövzusunun xitabdan əvvəl gəlməsinə baxmayaraq müəllim sistem və ardıcıllıq naminə xitaba dair öyrədilənləri əvvələ çəkməlidir. Xitabın cümlə üzvlərindən sonra tədris olunması yerinə düşür. Ona görə ki, bir çox cümlələrin yaranmasında xitablardan da istifadə olunur. Şagirdlərə elə gəlir ki, xitab da cümlənin yaranmasında iştirak etdiyindən o da cümlə üzvüdür, lakin müəllimin istiqamətverici şərhi və fərdi yanaşmaları sayəsində şagirdlər bu nəticəyə gəlirlər ki, xitab olan sözlə cümlənin digər üzvləri qrammatik cəhətdən bir-birinə bağlı olmur, xitab öz qrammatik müstəqilliyini saxlayır.

Tədqiqatın II fəslinin *“Məktəb təcrübəsində vəziyyətin təhlili və pedaqoji eksperimentin nəticələri”* adlı sonuncu yarımfəsli ümumiləşdirici xarakterlidir.

Azərbaycan dili dərslərində dil qaydalarının öyrədilməsi üzrə işin sistemi ilə bağlı aparılan işlər, şagirdlərin dil qaydalarını mənimsəmələrinin onların nitq inkişafına təsiri, əldə etdikləri nəzəri və təcrübi biliklərin vərdiş və bacarıqlara çevrilməsi kimi məsələlər üzrə Bakı şəhərinin 194, 165, 24 saylı, o cümlədən Yevlax, Bərdə, Tərtər, Hacıqabul və s. rayonların məktəblərində müşahidə, müəllim və məktəblilərlə sorğular təşkil edilmiş, ibtidai siniflərin müxtəlif pillələrində test nümunələri, yoxlama kartoçkaları, sorğu anketləri rəylər və s. ilə müəyyənləşdirici eksperimentlər aparılmış, şagirdlərin və müəllimlərin fəaliyyəti ilə bağlı real vəziyyət aşkarlanaraq elmi təhlildən keçirilmişdir. Sorğu və eksperimentlərin aparıldığı məktəblərin ibtidai sinif müəllimlərinə və şagirdlərinə ünvanlanmış fəal (interaktiv) təlimin mahiyyəti, ənənəvi təlim metodlarından fərqi, üstün və çatışmayan cəhətləri, müasir dərsə verilən tələblər, dərsin mərhələləri, resursları, təlim mühiti, qiymətləndirmə meyarları, yeni dərslik və proqramlara münasibət, dil qaydalarının öyrədilmə metodikası və s. ilə bağlı sualların cavabları təhlil edilərək müvafiq nəticələr əldə edilmişdir. Çoxistiqamətli və çoxməqsədli eksperimentlərimiz nəticəsində bir sıra həlli vacib problemlərə aydınlıq gətirilmiş, səbəb və nəticələr ümumiləşdirilmiş, təkliflər hazırlanmışdır. Bunların bir qismini nəzərə çatdırmağı məqsədəuyğun bilirik. Bakı şəhərinin Xətai rayonunun 194, 165 və 24 saylı məktəblərində apardığımız eksperimentlər zamanı məlum oldu ki, bir sıra müəllimlər hələ də müasir təlim metodları və qiymətləndirmə meyarlarına hazır deyil və buna görə də interaktiv metodlarla dərs qurmaqda çətinlik çəkirlər. Deyilənləri aşağıdakı cədvəllər üzrə bu şəkildə əks etdirmək olar:

2008-2009-cu illərdə məktəb təcrübəsində vəziyyətin təhlili ilə bağlı eksperimental və kontrol məktəblərdə alınan nəticələr

Cədvəl 1.

| Müəl. sayı | Ənənəvi üsula üstünlük verir | | Yeni dərsliklə işləməyi bacarmır | | Metodik vəsaitə biganədir | | Resurslardan istifadəni bacarmır | | Dərsin mərhə-lələrini bilmir | | Qiymət-ləndirməni bacarmır | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 50 | 21 | 42% | 22 | 44% | 18 | 36% | 24 | 48% | 28 | 56% | 26 | 52% |

Bunun səbəbləri üzərində düşünərkən məlum oldu ki, ibtidai sinif müəllimlərinin (yoxlayıcı eksperiment) bir çoxunun aşağı keyfiyyət faizi göstərmələri qanunauyğun səbəblərlə bağlıdır. İlkin eksperimentin aparılmasından keçən bir neçə il ərzində sinif müəllimlərinin kurslarda və treninqlərdə iştirakı interaktiv yanaşmalarla yaxın tanışlığı onların özlərinin və təlimin nəticələrinə çox müsbət təsir etmiş oldu.

2012-2013-cü illərdə keçirilən eksperiment zamanı eksperimental və kontrol məktəblərdə alınan nəticlər:

Cədvəl 2.

| Müəl. sayı | Yeni üsullara üstünlük verir, fənnin təlim məqsədlərini bilir | Yeni dərsliklə işləməyi bacarır, elmi-metodiki səviyyəsi qənaətbəxşdir | Təlim mühitini təşkil etməyi bacarır | Təlim mexanizmlərinə yaxşı bələddir | Dərsin mərhələlərini və fasilitasiya qaydalarını yaxşı bilir | Formativ və summativ qiymətləndirməni bacarır |
|---|---|---|---|---|---|---|
| 50 | 36<br>72% | 140<br>80% | 38<br>76% | 41<br>82% | 42<br>84% | 44<br>88% |

Məktəb təcrübəsindən əldə edilən nəticələrin təhlili aşağıdakı məsələlərin müəyyənləşməsinin zəruriliyini ortaya qoymuşdur:

a) Sorğu və müşahidə aparılan məktəblərin ibtidai sinif müəllimləri dil qaydalarının düzgün əsaslarla öyrədilməsinin şagirdlərin nitq və dil bacarıqlarının inkişafında müstəsna rolunu nəzərə çatdırmış, bunun üçün müasir təlim metodlarından istifadənin zəruriliyini xüsusi vurğulamışlar.

b) Məlumdur ki, təhsilin səviyyəsinin yüksəldilməsində müəllimin şagirdlərin biliklərini obyektiv səviyyədə qiymətləndirməsinin də müəyyən rolu vardır. Təəssüflə qeyd etməliyik ki, eksperiment apardığımız siniflərin əksəriyyətində müəllimlər bu işə biganə yanaşır, müair qiymətləndirmə meyarlarına əhəmiyyət verməyərək ənənəvi qiymətləndirmə üsulundan istifadə edirdilər.

c) Dil qaydalarının mənimsdilməsində dərsliklərlə bağlı ortaya çıxan çətinliklər haqqında da danışmaq lazım gəlir.

ç) Aparılan eksperiment təsdiq etdi ki, müasir təlim öz xarakteri etibarı ilə nə qədər demokratik olsa da, müəllimin öhdəsinə düşən vəzifə və məsuliyyət öz aktuallığını saxlamaqdadır. Ona görə də müəllim peşə hazırlığını təkmilləşdirmək üçün elmi-metodiki, pedaqoji-psixoloji ədəbiyyatı daim izləməli, mövcud yeniliklərdən xəbərdar olmalı, İTK-nın imkanlarından yararlanmağı bacarmalı, unutmamalıdır ki, təlim fəaliyyəti müəllimin və şagirdin birgə məqsədyönlü əməyi deməkdir.

Tədqiqatın nəticələrini bu cür ümumiləşdirmək olar:

1. Dil qaydalarına aid biliklərin sistemli və düzgün təşkili mənimsədilən nəzəri və praktik materialın mahiyyətini düzgün anlamağa, onu nitq təcrübəsində düzgün tətbiq etməyə, bunun üçün əlverişli şəraitin yaradılmasına, qrammatik biliklərin öyrənilməsi üçün zəruri maraq və tələbatların formnalaşdırılmasına zəmin yaradır.

2. Yeni biliyin mənimsədilməsində dil qaydalarından uyğun istifadə dil faktlarının ən mühüm əlamətlərinin hərtərəfli öyrədilməsinə, müqayisə və uyğun tutuşdurulmaların aparılmasına imkan yaradır, dil hadisələrinin mahiyyətinə varmağa, şagirdin öyrəndiyi dil qaydalarının şəraitə uyğun olaraq istifadəsinə yardımşı olur.

3. Dil qaydalarına aid biliklərin ardıcıl və sistemli şəkildə öyrədilməsi şagirdlərin qrammatik bilikləri bacarıq və vərdişlər səviyyəsinə qədər yüksəltmək və onlardan təcrübi şəkildə nitq praktikasında istifadə etməsinə səbəb olur.

4. Müxtəlif test-çalışmalar və ev tapşırığı üzərində işlər şagirdlərin məntiqi təfəkkürünü inkişaf etdirir, müstəqil və şüurlu fəaliyyətinə geniş imkanlar açır, onu axtarıcılığa, yaradıcılığa sövq edir, nəticə olaraq şagirdin müqayisə, ümumiləşdirmə və konkretləşdirmə bacarığı formalaşır, linqvistik təfəkkürü inkişaf edir.

5. Dil qaydalarının sistemli şəkildə mənimsədilməsinin əsas məqsədi ana dili təliminin aparıcı məqsədlərindən olan rabitəli nitq vərdişlərinə yiyələndirmədir. Məktəb təcrübəsi göstərir ki, dil qaydalarının şüurlu şəkildə, ardıcıl bir sistemlə mənimsədilməsi nitq inkişafında həlledici bir amilə çevrilir, qrammatik biliklərin başa düşülməsində vacib bir həlqə təşkil edir.

6. Dil qaydalarının mənimsədilməsində müxtəlif xarakterli qrammatik təhlil növlərindən istifadənin əhəmiyyəti əvəzsizdir. Dərsliklərdə və iş dəftərlərində qrammatik təhlilə qismən az yer verildiyini nəzərə alaraq müəllim bu işi genişləndirməlidir. Qrammatik təhlil qaydalarından düzgün və səmərəli istifadə bu və ya digər dil qaydasının öyrənilmə mexanizmini asanlaşdırmaqla yanaşı, onun yadda saxlanılmasına və şagirdin tətbiqetmə, tədqiqatçılıq imkanlarının inkişafına yardımçı olur. Bütün dərs tiplərinə uyğun gələn qrammatik təhlil metodu qrammatik təfəkkürün formalaşdırılması ilə bərabər nəzəri biliyin nitq təcrübəsinə şüurlu tətbiqinə səmərəli şərait yaradır.

7. Yeni fənn kurikulumları üzrə hazırlanmış Azərbaycan dili dərsliklərində əvvəlki illərdə mövcud olmuş müstəqil "Oxu" dərsliyinin də ma-

terialları öz əksini tapmışdır. Başqa sözlə, indi Azərbaycan dili dərslikləri həm də oxu dərsliyi funksiyasını yerinə yetirir. Məktəb təcrübəsi göstərir ki, dərsliyin bu cür tətibi bir yandan şagirdləri əlavə kitab daşımaq yükündən azad edirsə, eyni zamanda oxu və dil qaydalarına aid mövzuların əlaqəli tədrisi üçün əlverişli şərait yaradır, inteqrativliyin təmin olunma imkanlarını artırır, istinad materiallarından istifadəni asanlaşdırır.

8. İbtidai siniflərdə dil qaydaları məzmunca nisbətən sadə olsa da, əslində tam eyni xarakter daşıyaraq şagirdlərin gələcəkdə daha geniş əsaslarla öyrənəcəkləri, əldə edəcəkləri biliklərin təməlini təşkil edir. Dil qaydalarının biri digəri üçün zəmin hazırlayır, öyrədilməsi nəzərdə tutulan yeni dil qaydası əvvəlki dil qaydasına əsaslanır.

9. İbtidai siniflərdə öyrədilən dil qaydalarına sırf nəzəri məlumat kimi yanaşaraq onları mexaniki şəkildə əzbərlətmək özünü doğrultmur, bu qaydalardan ibtidai sinif şagirdlərinin yazılı və şifahi nitq inkişafı, cümlə qurmaq vərdişlərinin formalaşması aspektində istifadə etmək lazımdır. Dil qaydalarının öyrədilməsi zamanı şagirdlərin yaş, psixoloji, əqli və fiziki imkanları nəzərə alınmalıdır və s.

Dissertasiyanın əsas məzmunu çap edilmiş aşağıdakı məqalə və tezislərdə öz əksini tapmışdır:


1. Əlifba təliminə hazırlıq dövründə pedaqoji diaqnostikanın rolu. Pedaqoji Universitet Xəbərləri. 2002, №2, səh. 283-285

2. İbtidai təlimin keyfiyyətinin yüksədilməsində şagirdin pedaqoji prosesin bərabərhüquqlu iştirakçısı kimi nəzərə alınmasının rolu // "Elm" Beynəlxalq elmi-nəzəri jurnalı, 2005, №1, səh.62-65

3. Təhsilin ilk pilləsində dil qaydalarının məzmunu və mənimsədilməsi sisteminə dair // Azərbaycan məktəbi, 2012, №6, səh.107-110

4. Orta məktəbdə Azərbaycan dili morfologiyasının tədrisi məsələləri. Bakı, Nurlan, 2008, 316 s.

5. İbtidai siniflərdə ismin suallarının təlim əhəmiyyətinə dair // "Pedaqoji Universitet xəbərləri". 2009, №5, səh.341-343

6. II sinifdə Azərbaycan dili fənni üzrə dil qaydalarının mənimsədilməsi sisteminə dair // "Məktəbəqədər və ibtidai təhsil", 2010, №3, səh.101-105

7. İbtidai siniflər üzrə ana dili kurikulumunda dil qaydalarının öyrədilməsi probleminin qoyuluşu // Pedaqoji Universitet Xəbərləri. 2010, №2, səh.254-258.

8. Постановка проблемы изучения правил языка на куррикулумах по родному языку // “Хабарт-вестник”. Алматы. 2010, №1-2 , стр. 341-345

9. Başlanğıc siniflərdə orfoepiya qaydalarının mənimsədilməsi üzrə işin istiqamətləri / «Alman dili fakultəsinin 60 illik yubileyinə həsr olunmuş elmi-praktlk konfransın tezisləri (19 dekabr 2009-cu il). Bakı, 2010, səh.135-136

10. О системе освоения языковых правил по родному языку в начальных классах азербайджанских школ / Материалы III международной научно-методической конференции, 14-16 апреля 2010 года. Пятигорск. стр.126-127

11. İbtidai siniflərdə sifətə dair qrammatik qaydaların mənimsədilməsində sifətin suallarının rolu / “Klassik Azərbaycan filologiyası və müasir problemlər” mövzusunda Cəfər Xəndanın 100 illik yubileyinə həsr olunmuş elmi konfransın materialları. Bakı, 2010, səh.348-354

12. Dil qaydalarının mənimsədilməsi sisteminə diqqət yetirilir // Azərbaycan məktəbi, 2011, №4, səh.85-89

13. Məktəb təcrübəsində ibtidai siniflərdə dil qaydalarının mənimsədilməsi üzrə işin nəticələri və təsiredici amillər. Pedaqoji Universitet Xəbərləri. 2013, №1, s.278-283

14. İkinci sinfin Azarbaycan dili dərslərində dil qaydalarının mənimsədilməsi üzrə işin sistemi // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun Elmi əsərləri. 2013, №1, səh.118-121

15. İbtidai siniflərin yeni Azərbaycan dili dərsliklərində dil qaydalarının mənimsədilməsi üzrə işin təlim imtahanlarına dair, Pedaqoji Universitet Xəbərləri, 2013, №1, səh.407-410

**Б.И.Мехралыева**

## Система работы по обучению языковым правилам в обучении родному языку

### Резюме

В диссертацие речь идёт о системе работы по обучению языковым правилам в обучении родному языку в начальных классах. Исследовательская работа подготовлена на основе составленных по новому куррикулуму учебников и методических пособий. Как известно, в действующих учебниках в отличие от традиционных обновлены требования, предъявляемые к обучению языковым правилам. Цели и задачи, стоящие перед данным предметом, имеют в виду формирование навыков связной речи школьников. Именно поэтому в новых учебниках в центре внимания рассматривается понимание, изучение и говорение как средства родного языка.

Диссертация состоит из введения, двух глав, заключения и списка ис-пользованной литературы.

Во введении обосновывается актуальность темы, определяются цели и задачи исследования, её научная новизна, указана теоретическая значимость работы, апробация её научных положений, даются сведения о предмете, объекте, методах исследования и о структуре диссертации.

В первом разделе под названием «Общие вопросы исследования» комментируется постановка проблемы обучения языковым правилам на куррикулумах по родному языку, на широком фоне анализируются учебники и методическая литература.

Вторая глава диссертации «Систематическая методика обучения правилам языка по разделам языкознания в начальных класссах» охватывает 4 подглавы. В первой подглаве под названием «Система обучения языковым правилам по фонетике, орфографии и орфоэпии» комментируются уровень и методика обучения по указанным темам в каждом классе, цели и задачи, успехи учеников и их результаты. Вторая подглава данной главы посвящается методике системного освоения языковых правил по морфологии. Третья подглава соответственно называется «Система обучения языковым правилам по синтаксису». В последной подглаве особое внимание уделяется результатам проведённых экспериментов по рассматриваемой проблеме, перечисляются предложения и замечания. Проанализировав состояние школьной практики, подводятся итоги.

В заключении обобщаются выводы и основные проблемы исследования.

**B.İ.Mehraliyeva**

**The system of the process of teaching language rules in mother tongue training**

**S u m m a r y**

The dissertation paper deals with the system of the process of teaching language rules in native language training in primary classes. The research work is held on the basis of the textbooks and teaching aids prepared according to new curriculums. As it is obvious, the requirements of teaching language rules re renewed in present textbooks.

The dissertation consists of an introduction, two chapters, a conclusion and the list of reterences.

The introduction supports the actuality of the theme, scientific novelty, theoretical and practical importance determines its aims and tasks, gives information about the subject and object of the research, enumarates the principal points set forward to support.

The first chapter called "General problems of the research" includes the setting of the problem of teaching language rules in native language curriculums is discussed, current programmers and textbooks are extensively analyzed from the point of view of the problem.

The second chapter entitled "The systematized teaching of language rules according to the branches of linguistics in primary classes" comprises 4 subchapters.

The first subchapter called "The system of teaching language rules on phonetics, orthography and orthoepy" discusses the level of learning, its methodology, aims and tasks, student achievements and results of the above mentioned themes in each class (form). The II subchapter is dedicated to the methodology of systematized mastery of language rules related with morphology. The III subchapter named "The system of teaching language rules on syntax" enlightens such themes as the level of knowledge on word combination and sentence in primary classes, the succession of teaching, its place among general language rules, practical importance etc.

The last subchapter is "About the analysis of school practice condition and the results of pedagogical experiment, there, the results of the experiment held on the theme are called for attention, suggestions and comments are encountered, reasons and conclusions are generalized according to the analysis of the school practice condition.

The research results are summarized in conclusion.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ**
**ПЕДАГОГИЧЕСКИЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**Басти Иса кызы Мехралыева**

# СИСТЕМА РАБОТЫ ПО ОБУЧЕНИЮ ЯЗЫКОВЫМ ПРАВИЛАМ В ОБУЧЕНИЯ РОДНОМУ ЯЗЫКУ

**5801.01 – Теория и методика обучения и воспитания (методика преподавания азербайджанского языка)**

## А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание научной степени доктора философии по педагогике**

**Баку - 2014**